1. Mənzil növbəsinə durmaq üçün Siyəzən Rayon İcra Hakimiyyətinə "Rəqəmsal İcra Hakimiyyəti" portalı, Rayon İcra Hakimiyyətinin rəsmi saytı və Rayon İcra Hakimiyyətinin rəsmi elektron poçtu vasitəsilə müraciət etmək imkanı yaradılmışdır.
2. **Yaşayış sahəsinə ehtiyacı olan qismində vətəndaşların uçota alınması Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 51.3-cü maddəsinə əsasən Xidmətin həyata keçirilməsi tələb olunan sənədlər:**

1. Ərizə;
2. Arayış-Forma 2;
3. Yaşayış yerində arayış;
4. Ailə üzvlərinin şəxsiyyət vəsiqələrinin və ya doğum haqqında şəhadətnamələrinin surəti;
5. Nikah haqqında şəhadətnamələrin surəti;
6. Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 2 saylı Sumqayıt Ərazi İdarəsinin Siyəzən rayon şöbəsindən 18 yaşından yuxarı olan ailə üzvlərinin adına şəxsi mülkiyyətin olub-olmaması barədə arayışlar;
7. Rayon üzrə fəaliyyət göstərən bələdiyyədən mənzil növbəsinə dayanmaq istəyən şəxsin və ailə üzvlərinin adına torpağın ayrılıb-ayrılmaması barədə arayışlar;
8. Qeydiyyatında olduğu mənzilin və ya fərdi yaşayış evinin sənədi;
9. Hər hansı bir güzəşt varsa bu barədə müvafiq sənəd.

**Ərizə nümunəsi:**

**Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı**
**cənab Novruz Novruzova**

____________________________________

(vətəndaşın şəxsiyyət vəsiqəsi üzrə qeydiyyatında olduğu ünvan)

yaşayan ______________________________

(soyadı, adı, atasının adı)

tərəfindən

**tel.:** __________________

**Ə R İ Z Ə**

Yazıb Sizdən xahiş edirəm ki, mənim ailə tərkibi _____ nəfərlə ____________________________ yaşayış yeri üzrə ümumi (və ya güzəştli əsaslarla) əsaslarla Rayon İcra Hakimiyyətində mənzil sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmağıma dair müvafiq qərar qəbul edəsiniz.

**İmza:**

**Tarix:**

3. Siyəzən Rayon İcra Hakimiyyətinin mənzil fondunda boş yaşayış sahələri yoxdur.
4. Yaşayış sahəsinə ehtiyacı olan hesab edilə bilən Mənzil Məcəlləsində göstərilən kateqoriyalardan olan vətəndaşların yaşayış sahəsinə ehtiyacı olan qismində uçota durmaq hüququ vardır. Yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınması şəxsin təqdim etdiyi ərizəsi əsasında həyata keçirilir. Şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınması haqqında Siyəzən Rayon İcra Hakimiyyəti başçısının Sərəncamı uçota alınma barədə ərizə vermiş şəxsə təqdim edilir və ya göndərilir. Növbəlik prinsipinə uyğun olaraq şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınması haqqında Siyəzən Rayon İcra Hakimiyyəti başçısının Sərəncamların tarixlərinə əsasən ardıcıl artan sıra qeyd edilir.